# BİRİNCİ HİSSƏ

# 1

***Bismilləhir rəhmanir rəhim! Mürəkkəbə də, qələmə də, qələmlə yazılanlara da and olsun; Qaranlığı bitməkdə olan gecəyə də, onun içindəkilərə də and olsun; Bədirlənmiş aya da, ağarmaqda olan dan yerinə də and olsun; Qiyamət gününə də, özünü qınayan nəfsə də and olsun; Hər şeyin əvvəli və sonu zamana da and olsun ki, ziyana düşən doğrudan da həmişə insan olur.***
***"Quran"dan***

Hekayətimi özümdən, yaxud başqalarından ötrü hər hansı bir təmənna güdmədən, təmənnadan, ölçüb-biçməkdən də əfzəl ehtiyac üzündən başlayır, istəyirəm ki, öz əlimlə haqqımda yazdığım qeydlərimi qoyub gedəm, öz-özümlə üzücü söhbəti qələmə alam – bu xəfif gümanla ki, ağlığıyla bu saat adamı cırnadan kağızın mürəkkəbi quruyandan, həm də hər şeyə yekun vurulandan sonra (işdi, yekun vursalar) hər şey öz yerini tutacaq. Qələmin nə yazacağını bilmirəm, fəqət əminəm ki, bu əyrim-üyrüm hərflər ürəyimdə qövr eləyənlərdən az-çox bir iz, nişanə saxlayacaq və bunlar heç nə baş verməyibmiş kimi dumana qarışıb itməyəcək.

Mən dəyişib necə özümə döndüyümü görə bilirəm – bu möcüzənin səbəbisə mənə bəlli deyil; amma bəlkə bununla bağlıdır ki, hələ heç vaxt mən indi göründüyüm kimi olmamışam. Qəliz yazdığımı, həm hakim, həm şahid, həm də müttəhim olacağım bu divan astanasında düyünlər açmaq zorunda qalacağıma görə əlimin tir-tir əsdiyini duyuram. Mən hər şeyi bircə-bircə, bacardıqca doğru-dürüst, ümumiyyətlə, mümkün olan qədər doğru-dürüst danışacam, çünki səmimiliklə doğruluğun eyni şey olduğuna şübhə eləməyə başlayıram, axı səmimilik adamın düz danışdığına inamımızdır (buna kim əmin ola bilər?), doğruluğunsa çox yönü olduğundan bunların ikisinə də eyni gözlə baxmaq yaramaz.

Adım Əhməd Nurəddindi, mənə verilmiş bu adı fəxrlə qəbul eləmişəm, amma indi üz-gözümdə izləri qalmış illərdən sonra bu adın mənasına varanda heyrətlənir, bəzən hətta qımışır (axı “dinin nuru” sözlərində mənə xas olmayan təkəbbür əlaməti var) və bir az da sıxılıram. Mən hardan nurlu oldum? Nəylə axı? Bilikləmi? Misilsiz müdriklikləmi? Saf, təmiz ürəkləmi? Həqiqətsevərlikləmi? Qətiyyətlilikləmi? Bunların hamısına şübhəm var və mən bu saat ancaq Əhmədəm, – nə Nurəddinəm, nə də şeyx. Hər şey pal-paltar, yaraq-əsləhə kimi əynimdən qopub düşür, ortada əzəli – çıl-çılpaq, lüt-üryan insan qalır.

Qırx yaşım var; bu, pis vədədi: sən çox da cavan deyilsən ki, cürbəcür istəklərinin necəliyini yoxlaya biləsən, həm də artıq o dərəcədə sinlisən ki, bunları yarıtmaq halında olmursan. Ehtirasların soyuyur, qazancın əldə etdiyin vərdişlər və bir də ta heç nəyə yaramadığını aydınca anlaya bilməyindir. Mənsə çoxdan, bütün yolların məqbul, yanılmaların da həqiqətlər qədər faydalı olduğu, əsl çiçəklənmə çağlarımda qulpundan yapışmalı olduğum bir işə indi girişirəm. Əfsus, nə on yaş böyüyəm ki, sinnim məni qiyamdan çəkindirəydi, ya da nə on yaş kiçiyəm ki, heç nəyin fərqinə varmayaydım. Axı otuz yaş – cavanlıq vədəsidi, yanımdan həmişəlik ötüb keçdiyi bir vaxtda belə düşünürəm – adamın heç nədən, hətta özündən belə qorxub çəkinmədiyi cavanlıq vədəsi.

Dilimdən qəribə söz qopdu: qiyam. Qələm belə, asanca üzə çıxmış narahatlıq izlərini qoruyub saxlayan rəvan sətirlərin üzərində donub qalıb. İlk dəfədi müsibətimi dilə gətirirəm, əvvəllər haqqında düşünməmiş, onu heç vaxt belə adlandırmamışam. Qorxulu söz hardan gəlib yaxaladı məni? Həm də təkcə sözmü? Öz-özümdən soruşuram: əhvalın daha da ağırlaşmasın, deyə hekayətini yarıda saxlamağın yaxşı olmazmı? Bir halda ki bu hekayət hətta haqqında danışmaq istəmədiyin, fikrində tutmadığın, indi artıq təlaşını boğa bilmədiyin ürəyinin gizli bir guşəsində belə əsər-əlaməti olmayan bir şeyi üzə çıxarırsa, həm də əgər bütün bunlar doğrudan da belədirsə, onda sənin yazacaqların amansız bir istintaq, dəhşətli bir uydurma olardı ki, belədə səliqəylə yamanmış qarğı qələmi sındırıb, dolu mürəkkəbqabını təkyə qarşısındakı daşa çırpmağın yerinə düşərdi; barı onda bu qara mürəkkəb ləkəsi cin-şeytan buyruğunda olan ovsunçulardan həmişə gen dolanmalı olduğunu sənə xatırladardı. Qiyam! Sözmü bu, ya fikirmi? Fikirdisə onda nə gizlənir? Həqiqət, yoxsa yalan? Yalandısa vay halıma, həqiqətdisə – iki qat vay halıma!

Fəqət ayrı yol da yoxdur, mənim etibar eləməyə özümdən və kağızdan savayı heç nəyə gümanım gəlmir. Buna görə də yüyənsiz sətirləri inci kimi – şəhadətin və ya ittihamın uzun saplı muncuqlarını sağdan-sola, uçurumun bir qırağından digərinə, bir fikir sıldırımından o birinə düzmək zorundayam. Mən kimi ittiham edirəm, əlacsız insan iztirabları içində məni tərk edib tək-tənha buraxmış rəbbim, kimi? Özümü, yaxud başqalarını? Di gəl ki, geriyə ta yol yoxdu, ölümdən və həyatdan olduğu kimi bu hekayətdən də qaça bilmərəm. Nə qismətdirsə o da olacaq, mənim günahımsa – hərgah günahdırsa – ancaq bu sayılacaq ki, mən necəyəmsə, eləcəyəm ki varam. İçimdə hər şey dönüb-dolaşıb, məni başdan-ayağa titrətmə bürüyüb. Elə dünya da mənimlə bir lərzəyə gəlib. Mən itirdiyim bu rahatlığı o da tapammaz; amma hər halda nə olubsa, nə baş verirsə səbəb birdi: mən özümə hörmət qoymaq istəyirəm, hörmət qoymağa borcluyam. Bunsuz çətin ki insan təkin yaşaya biləm. Yəqin ki, gülməlidi, axı elə dünən də

insandım və elə bu gün də insan qalmaq istəyirəm, lap ayrı cür, bəlkə də əvvəlkinə heç oxşamayan, ancaq bu məni maraqlandırmır, axı insan – hərəkət deməkdi, dil açıb danışan vicdanın səsini eşitməsək vay halımıza.

Mən Mövləvi təriqəti təkyəsinin – ən çoxsaylı, ən təmiz təriqət təkyəsinin şeyxiyəm; məskun olduğum təkyəsə kiçik şəhərin qurtaracağında, qara və bozumtul qayaların arasındadı; bu qayalar səmanın qarşısını kəsib ancaq kiçicik göy yarıq saxlayır ki, bu da nəhəng uşaq dünyasının hüdudsuzluğunun cüzi sədəqəsi və xatırlatmasıdı. Mən bu xatirələri xoşlamıram, bunların hamısı məni həmişəlik əldən çıxmış naməlum bir imkan kimi getdikcə daha çox üzür, sarsıdır. Ata yurdunun yuxarısında yadımda dumanlı qalmış sıx meşələri, göl yaxınlığındakı düzəngahı, bağı və indi mənimlə təkyənin qapanıb qaldığımız daşlı-kəsəkli dərəni tutuşdurarkən birdən mənə elə gəlir ki, bizi sıxan eyni məngənədi.

Geniş və yaraşıqlı təkyə iti axan kiçik çayın üst tərəfindədi, bina yığcam bir bağ və güllük-çiçəkliklə əhatə olunub, eyvanına tənəyin kölgəsi düşür, böyük divanxananın pambıq kimi yumşaq və buna görə də axar suyun güc-bəla eşidilən şırıltısını bir az da boğan sükutu var. Vaxtilə hərəmxana olmuş bu evi təriqətə varlı-karlı Əli Caniç bağışlayıb ki, dərvişlər onu öz mərkəzlərinə, taledən incik yoxsulların sığınacağına çevirsinlər. Biz dualarla, kəklikotuyla bu binadan günahı-filanı təmizləyəndən sonra təkyə müqəddəs ocaq şöhrəti qazanıb. Amma gözəllərin kölgələrini buradan əsla kənar edə bilməmişik. Hərdən adama elə gəlir ki, bu kölgələr otaqdan-otağa süründükcə rayihəsi duyulur.

Hamıya məlumdu, odur ki mən də gizlətmirəm, yoxsa bu yazı bilərəkdən yalan (qeyri-ixtiyari, qəsdsiz-qərəzsiz yalana günah düşmür) olardı, təkyənin başçısı, şöhrəti, əzizi, dayağı mənəm. Beş otaqlı adi binalardan biri olardı mənsiz bu təkyə, sayəmdəsə dinin dayağına çevrilib. O həm də sanki bu kiçik şəhərin gizli-aşkar bəlalardan müdafiəçisi və himayədarıydı, çünki ondan o tərəfə bircə bina belə yoxdu. Bağın ətrafındakı sıx hasar, qalın divarlar hücrəmizi daha möhkəm, etibarlı bir məkana çevirir, qapıları da təsəlliyə və günahını yumağa

ehtiyacı olanların üzünə həmişə açıqdı. Gələnləri mehriban qarşılardıq, onların sayı qayğılarından az, günahlarındansa daha cüziydi. Mən öz qulluğumla öyünmürəm, axı bu, din naminə canla-başla icra edilən qulluqdu. Başqalarını da, özümü də günahdan qorumağı borc bilirdim. Gizləmək nə lazım, elə özümü də. Suçlu fikirlər yel kimi bir şeydi, hələm-hələm qorunmaq olmur. Demirəm bu, böyük bir bəladı. Rəf edilməli nəfs olmasa, ta möminlik nə üçünmüş? Mən bu əqidədəydim ki, insan Allah deyil, səhvi də ola bilər, onun gücü elə zəifliyini üstələyə bilməyindədir. Bir şeyi rəf eləmirsənsə, ta sənin xidmətin nə oldu? İndisə ayrı cür düşünürəm, lakin növbəsi gəlib çatacaq şeylərin həllinə indidən baş qoşmağa dəyməz, hamısına vaxt çatar. Dizlərimin üstündəki kağız məni yüngülləşdirməyəcək yükün cəfasını çəkməyə müntəzirdi; qarşıda çoxlu yuxusuz gecə durur, mən hər şeyi çatdıracaq, eləməli olduqlarımın heç birindən çəkinməyəcək, öz-özümü ittiham edəcək, qorunacam; tələsməyə dəyməz, baxıram, elə şeylər var ki, mən ya indi yaza bilərəm, ya da heç vaxt. Zamanı gəlsə, həvəsim olsa ayrı yazılmalıların növbəsi çatacaq. Beynimin gizlin guşələrində fikirlərin sıxlaşaraq bir-birindən yapışıb durduğunu duyuram, bunların hamısı bir-birinə bağlıdır, ayrılıqda mövcud deyil, bu qarmaqarışıqlıqda belə nəsə bir nizam da var: adamda qəribə tərzdə, qəfil hansı bir fikrisə irəli verib onu aydınlığa çıxarmaq kimi şiddətli istək baş qaldırır ki, səni ya qovhaqova salsın, ya da təsəllinə çevrilsin. Bəzən fikirlər faydasız qalacağından ehtiyatlanıb, tünlükdə qalmaqdan bezib səbirsizliklə özünə yol açmaq istəyir. Tələsməyin, hər şeyin öz vaxtı var. Mən sizə özüm özümü təslim eləyəcəm, hakimə də dəlil-sübutlar, şahidlər lazımdır ki, mən bunlardan qaçıb gizlənməyəcəm. Axırda özüm haqda hökm çıxara biləcəm; axı söhbət bir ayrısından deyil, özümdən gedir. Aləm birdən-birə müəmmalı şəkildə dəyişdi, artıq özümüzü tanıya, anlaya bilmədiyimizə heyrətlənərək üz-üzə dayandıq.

Qərəz, yenidən özüm və təkyə haqda söhbətə qayıdıram. Mən onu əvvəllər sevmiş, elə indi də sevirəm. Sakit guşədi, pakdı, doğmadı, yayı çiçək, qışı qar-sazaq qoxuyur. Təkyəni sevməyimin bir səbəbi də budu ki, şöhrətinə görə mənə borcludu, başqalarına açmadığım, hətta

özümdən belə gizlədiyim sirlərim bircə ona əyandı. Təkyə isti yuva, rahat məkandı, səhər tezdən damında göyərçinlər quruldaşır, yağış döyəclədikcə kirəmitləri boğuqca səslənir, yay olmasına baxmayaraq yağış indinin özündə də ara vermir, sel-su dünyanı bürüyən məşumluq əlaməti kimi novalçalardan birbaş gecəyə çırpılır, sanki bu yağış heç vaxt kəsməyəcək, amma əminəm ki, gün buludları tezliklə qovub dağıdacaq. Təkyənisə oradakı iki otağımın sükutuna pənah aparıb tək qala, gəlib-gedənlərin əlindən qurtulub dincələ bildiyimə görə sevirəm.

O kiçik çay da mənə bənzər; gah gurdu, gah da lap sakit. Çox vaxt qınına çəkilib cınqırını da çıxarmaz. Təkyənin ayağında bu çayın qarşısı bəndlə kəsilib ram ediləndə, novla axıb dəyirman çarxını hərlətməli olanda kədərlənmiş, qorxunc bir nəriltilə bənd-bərəni dağıdaraq azadlığa çıxandasa sevincim yerə-göyə sığmayıb. Elə onda bilmişəm ki, dəni o, ancaq cilovlananda üyüdür.

Elə bu zaman çardaqda göyərçinlər astadan quruldadı, yağış günlərlə aramsız yağdığından onlar çöl tərəfə çıxa bilmirlər; bu qurultular açılmaqda olan səhərin müjdəsidir. Qələm əlimdə donub qalıb; can vermək istəməyən şam çırtıltıyla yan-yörəsinə qığılcım saçır. Mən uzun fikir düzümlərinə baxır, bilmirəm bunları öldürür, ya da dirildirəm.

# 2

***Haqq-taala hər bir yamanlığa görə cəza verməli olsaydı, yer üzündə bircə canlı məxluq qalmazdı.***

Hər şey düz iki ay üç gün əvvəl, Yuri günü ərəfəsində döndü-dolaşdı – mən vaxt hesabını bu sərhəddən başlayıram, çünki mənə, elə bu zamanın dəxli var. Qardaşımın zindana salındığı vaxtdan onlarca gün keçmişdi.

Qaş qaralırdı, küçələrdə son dərəcə dilxor və narahat dolaşırdım. Amma uzun illər özümü ələ ala bilmək vərdişimlə zahirən sakit görünürdüm. Həyəcanım hərəkətlərimə sirayət eləməmişdi. Nə sirdisə ən ağır vaxtımda belə düşüncələrimlə baş-başa mən dönüb istədiyim kimi ola bilirəm. Bu sakit ala-toran çağı çox həvəslə şəhəri tərk edib gecəni tək-tənha qarşılardım, lakin qayğılarım məni tamam ayrı səmtə – adamların yanına çəkdi. Mən hamimiz qoca Caniçin evinə çağırılan, amma qəflətən naxoşlayan hafiz Məhəmmədi əvəz eləməliydim. Caniç neçə aydı xəstəydi, bilirdim ki, bizi yanına ölüm ayağında çağırır. Həmçinin burasından da agahdım ki, qardaşımın tutulmağı barədə sənədi onun kürəkəni – qazı Ayni